## HUMANİTAR ELMLƏR

**UOT 8.001.82-09**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ FELYETONLARDA BƏDİİ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİNDƏN İSTİFADƏ

**S.H. Quliyeva**
(AMEA-nın akademiki T.Kərimli tərəfindən təqdim edilmişdir)

*XX əsrin əvvəllərinin mətbuatında yer alan felyetonlar mövzu və ideyasına, problematikasına görə zəngin olmaqla yanaşı, bədii təsvir və ifadə vasitələrinin çoxçalarlığı baxımından da diqqəti cəlb edir. Bu dövrdə yazılan felyetonlarda klassik sənətkarların əsərlərindən və ədəbi qəhrəmanlarından bir fon kimi yararlanmaq əsas ədəbi priyomlardan idi. XX əsr Azərbaycan nəsrində, poeziya və publisistikasında özünü göstərən təşbeh, epitet, metonimiya, metafora və digər məcazlar sisteminin əsas bazası, ilkin mənbəyi xalqımızın zəngin folklorudur. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, M.S.Ordubadi, Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, Ə.Qəmküsar və başqa felyetonçular əsərlərində fərdiləşdirmə və tipikləşdirmə məsələsinə xüsusi diqqət yetirmiş və yaradıcılıqları boyunca bu sənətkarlıq prosesini nəzərdən qaçırmamışlar.*

***Açar sözlər:*** *felyeton, mətbuat, ədəbiyyat, "Molla Nəsrəddin" jurnalı, bədii təsvir və ifadə vasitələri*

XX əsrin əvvəllərinin mətbuatında yer alan felyetonlar mövzu və ideyasına, problematikasına görə zəngin olduğu kimi, bədii təsvir və ifadə vasitələrinin çoxçalarlığı baxımından da diqqəti cəlb edir. Felyetonlarda ictimai-siyasi, sosial məsələlərin qabardılması və kütləvi xarakter almasında yazıçının müraciət etdiyi mövzunun aktuallığı ilə yanaşı, onun çoxsaylı oxucu auditoriyasına necə təqdim olunması da mühüm şərtlərdəndir. Məhz bu mühüm məqama xüsusi diqqət yetirən görkəmli ədiblər felyetonda epitet, təşbeh, metafora, metonimiya, simvol kimi bədii təsvir vasitələrindən, eləcə də Azərbaycan dilinin bütün üslubi çalarlarını, polifonikliyini, ecazkar təsir imkanlarını özündə ehtiva edən bədii sual, təzad, təkrir, kinayə, mübaliğə, litota, inversiya və s. bədii ifadə vasitələrindən yerli-yerində və mətnin ümumi məzmun və ideyasına uyğun olaraq istifadə etmişlər.

Bu dövrdə yazılan felyetonlarda klassik sənətkarların əsərlərindən və ədəbi qəhrəmanlarından bir fon kimi yararlanmaq əsas ədəbi priyomlardan biri kimi maraq doğurur. Xüsusilə satirik ədəbiyyatda və mətbuatda, əsasən də mollanəsrəddinçilərin yaradıcılığında onlara yazılmış parodiya və perifrazlar oxucular tərəfindən maraqla qarşılanmışdır. C.Məmmədquluzadə və M.Ə.Sabirin yaradıcılığında ezop manevrindən istifadə yolu ilə yaradılmış mükəmməl nümunələrlə qarşılaşırıq. Mollanəsrəddinçilərin klassik Şərq şairlərinin poemalarından oxuculara yaxşı tanış olan Məcnun, Fərhad, Yusif, Vamiq və başqa lirik səpkili obrazlara satirik fon verməsi ədəbiyyatımıza və milli mətbuatımıza bir yenilik və orijinallıq gətirmişdir. Bu baxımdan M.Ə.Sabirin "Leyli və Məcnun" satirasını, C.Məmmədquluzadənin "Yar ilə görüşmək" adlı felyetonunu ayrıca qeyd etmək yerinə düşərdi. C.Məmmədquluzadə yazır: "Tamam üç aydır ki, məktəblər bağlı, küçələr boş, cavanlarımız sərgərdan, balaca məhbublardan ayrı düşüb. Məcnuntək biixtiyar veyillənməkdə idilər" [5]. Yazıçı felyetonda Füzulinin Məcnunundan tamamilə fərqli, öz mənəvi-əxlaqi dəyərlərini itirmiş, cəmiyyət üçün yararsız bir varlığa çevrilmiş cavanları kinayəli şəkildə Məcnun adlandırır. Cəmiyyətə ləkə olan, ata-ana tərbiyəsindən uzaqlaşaraq qeyri-insani instinktlərlə yaşayan, gün keçirən, tüfeyli həyat sürən bu gənclər ilk baxışdan Məcnuna bənzədilsə də, əslində Füzulinin Məcnununa qətiyyən oxşamır, onunla tam təzad yaradır. C.Məmmədquluzadə bu təşbeh-obraz vasitəsilə öz dövrünün reallıqlarını

ictimailəşdirir, gənclərimizi doğru yola dəvət edir və belə məcnunlarla mübarizəyə səsləyir.

Felyetonçular ədəbi dilin etik və estetik normalarından kənara çıxan sözlər istisna olunmaqla, demək olar ki, dilimizin lüğət fonduna daxil olan bütün sözlərdən - arxaizm, neologizm, varvarizm, vulqarizm, jarqon, idiom, termin və s. sözlərdən obrazların düşüncə tərzinə, dünyagörüşünə, həyata və cəmiyyətə baxışına görə yerli-yerində və məqamında istifadə etmişlər. C.Məmmədquluzadə, Ü.Hacıbəyli, M.S.Ordubadi, Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, Ə.Qəmküsar və başqa felyetonçular əsərlərində fərdiləşdirmə və tipikləşdirmə məsələsinə xüsusi diqqət yetirmiş və yaradıcılıqları boyunca bu sənətkarlıq vasitələrini nəzərdən qaçırmamışlar.

XX əsr Azərbaycan nəsrində, poeziya və publisistikasında özünü göstərən təşbeh, epitet, metonimiya, metafora və digər məcazlar sisteminin əsas bazası, ilkin mənbəyi xalqımızın minilliklər boyu yaratdığı, yaşatdığı və çağdaş dövrə daşıdığı zəngin folklorudur. Satirik ədəbiyyatımızın və mətbuatımızın formalaşmasında bu əvəzsiz məxəzlərin müstəsna rolu var. Bu dəyərli örnəklər dövrün söz sənətkarlarının yaradıcılığına təsirsiz ötüşməmişdir. Yeni satirik nəsrimizin leksikonunda stabilləşən təşbehlər, epitetlər və bütövlükdə məcazlar sistemi bu obrazlı və kəskin satirik ittihamlarla yüklənmiş ifadələrin məhz şifahi xalq ədəbiyyatından qaynaqlandığını bir daha təsdiqləyir.

Felyetonların səciyyəvi xüsusiyyətlərindən biri də onların tamamilə əks qütbdə dayanan tragizmlə komizmin sintezini özündə ehtiva etməsindədir. “Satira bizim nöqteyi-nəzərimizcə, iki əksliyin – komik və tragik vəziyyətlərin dialektik birliyidir” [2]. Bu sinkretikliyi daha çox mollanəsrəddinçilərin yaradıcılığında müşahidə etmək mümkündür.

Felyetonlarda bədii təkrirlərdən də geniş istifadə olunmuşdur. Cəlil Məmmədquluzadənin “Tərəkəmə” felyetonunda deyilir: “Bu da bizim ittifaq və ittihadımız. “İttihad” məktəblərini demirəm ha!.. Bu da bizim ittihadımız, bu da bizim qeyrət və hümmətimiz. Doğrudan da, insanda bir həya yaxşı zaddır...

Amandır, qardaşlar, qeyrət, qeyrət (əgər varsa). Amandır, qardaşlar, hümmət, hümmət (xudanəkərdə). Ax, bu qarabağlılar” [8]. Göründüyü kimi, yazıçı monoloq üslubunda yaratdığı bu nitq aktı vasitəsilə felyetona canlılıq, cazibədarlıq, dinamika vermiş və mətni sxematiklikdən uzaqlaşdırmışdır. Cəlil Məmmədquluzadə üslubi fiqurlardan istifadə yolu ilə felyetonun bədii keyfiyyətini, effektivliyini, forma və məzmun gözəlliyini artırmağa müvəffəq olmuşdur.

Ümumiyyətlə, mollanəsrəddinçilərin felyetonlarında təkrirlər komizmin yaranmasına və inkişafına təkan verir, effektivliyi yüksəldir və bədii fikrin daha qüvvətli səslənməsində başlıca amilə çevrilir. Şübhəsiz, bu faktorlar mətndə yalnız analitik şəkildə özünü göstərməklə kifayətlənmir, bütövlükdə mollanəsrəddinçilərin yaradıcılığına xas olan sinkretikliyin formalaşmasına stimul verir.

M.S.Ordubadinin “Molla Nəsrəddin” jurnalının 1925-ci ilin 35-ci sayında “Bəhayi” imzasıyla dərc etdirdiyi “Haziq həkim” adlı felyetonunda [1] da bu forma-struktur özəlliyini görürük. Yazıçı çar Rusiyası ilə İran despotizminin xalqa zidd siyasətini, onun azadlıq uğrunda mübarizəsini süquta uğratmaq planlarını ifşa etmək məqsədilə daha təsirli boyalardan yararlanmış və məhz bu ədəbi vasitəyə müraciət etmişdir.

Bu kompozisiya əsasında yazılan felyetonlarda artan ardıcıllıqla qurulan cümlələrin silsiləsi çoxaldıqca yumor və komizmin dərinləşməsi və sarkazma yüksəlməsi prosesi baş verir. Məhz bu model üzərində ehtiva olunan felyetonlarda bir vasitəsiz nitqdə digər bir vasitəsiz nitqin qərarlaşması modelin həlqələrinin silsiləvari dalğalanmasına gətirib çıxarır ki, bu da güclü gülüşlə müşayiət olunur. Bu baxımdan C. Məmmədquluzadənin “Hansı elmlər lazım?” felyetonu [6] diqqəti cəlb edir.

Müəlliflərin felyetonlarda vasitəli və vasitəsiz nitqdən yararlanmasının bir səbəbini də mətndə yığcamlığın, lakonikliyin gözlənilməsi prinsipi və az sözlə daha dərin mətləbləri çatdırmaq istəyilə izah oluna bilər. Bu üsuldan istifadə edən yazıçılar təsvirləri mümkün qədər qısaltmağa çalışır, statikliyi aradan qaldıraraq əsərin dinamikliyini artırırlar. Felyeton müəllifləri, xüsusilə də mollanəsrəddinçilər əsəri süst, donuq ifadələrlə tamamlamır, dinamika ilə ye-

kunlaşdırır ki, bu da oxucunu öz arxısınca aparmağa və onları məsələ ətrafında düşünməyə, nəticə çıxarmağa sövq edir.

Eyni sintaktik modellə M.Ə.Sabirin "Sual-cavab" ("Şəhri məlumunuzun vəzü qərarı necədir?"), "Olmur-olmasın", "Bura say", "Bir məclisdə on iki kişinin söhbəti" və başqa satiralarında rastlaşırıq. Bu əsərlərdəki dramatiklik və dinamiklik bütövlükdə felyetonlar üçün də səciyyəvidir.

Felyetonlarda bəzən müəlliflər iki ziddiyyətli fikri bir mətn daxilində qarşılaşdırır, yazıçı tendensiyasını ifadə edən əsas mətləb qəsdən sanki bir pərdə arxasında gizlədilir, lakin mənfi planda verilən fikir isə daha qabarıq şəkildə nəzərə çarpdırılır. Bu zaman oxucunun diqqətini cəlb edən təbii ki, zəif işıq şöləsinin arxasından süzülən, müəllif qayəsini özündə ehtiva edən mətləbdir. Çünki felyetonun əsas ideoloji xətti, məqsəd və məramı məhz həmin nöqtədə təmərküzləşir: "İl yarım bundan qabaq Tiflisdə bir para müsəlmanlar qırmızı bayraq götürüb, "yaşasın hürriyyət!" – deyib küçələri dolananda, böyük mollalarımız camaata buyururdular: "Baxmayın bu axmaqların sözünə, bunlar müsəlmançılıqdan çıxıblar!" [7]. Şübhəsiz, burada oxucunu özünə cəlb edən mətnin birinci hissəsində əksini tapan müəllif tendensiyasıdır. "Yazıçı həyati faktları, sənədləri, rəqəmləri birbaşa sadalamır, bir xətt üzrə təsvir etmir, başqa sözlə, düşmənin arxasına keçib zərbə endirir. Məfkurə düşməninə zahirən xoş gələ biləcək nəvazişkaranə ifadələr işlədir, razılıq edir, minnətdarlığını bildirir, tərifləyir, alqış söyləyir. Lakin bu mülayim yumorun altında gizlənən rişxənd neştərini də işə salır". [3]

Felyetonların strukturunda bir maraqlı məqamla da qarşılaşırıq. Müəllif başqasının nitqini öz sözləri ilə ifadə edərək onu vasitəli nitqə çevirir. Yazıçı həmin şəxsə xitabən səsləndirdiyi fikirlərlə bir növ söz sahibi ilə özünün düşüncələrini ortaqlaşdırır və onların məqsədi birləşərək felyetonun problematikasının həllinə kömək edir. Cəlil Məmmədquluzadə bu ədəbi priyomdan böyük ustalıqla bəhrələnmişdir.

Ömər Faiq Nemanzadənin felyetonlarında da bədii xitablardan çox istifadə olunmuşdur. Ədib sadalama intonasiyası vasitəsilə dövrün bir çox zümrələrini əhatə edən mənsəb sahiblərinə müraciət edərkən həmcins üzvlərin zənginliyindən istifadə edir, cəmiyyətdə bu tipli insanların çoxluğunu göstərməklə, xalqa tanıtdırmaqla yanaşı, həm də bu satirik tiplərin xalqı cəhalətə, səfalətə və xurafata sürükləyərək elmdən uzaqlaşdırmasını tənqid hədəfinə çevirir və həmvətənlərini qaragüruhçuların fitvalarına uymamağa çağırır.

Felyetonlarda bəzən yazıçının müstəqim məna ifadə edən fikri antitezalıq yaradan məna yükü ilə birləşərək tənqidi effekti daha da kəskinləşdirir və təsir dairəsini genişləndirir: "Ürəyimizdəkini nə üçün gizlədəlim: hüquqsuzluğumuz üzündən idareyi-ruhanilərimiz, milli məktəblərimiz, dilimiz, milli xeyiratımız, vəqflərimiz ağlanacaq bir halda olarsa, bu idarələrin, bu əməllələrin fikir və tərbiyəsi altında yaşayan cəmiyyət əcəba nə halda olar?" [9]. Yazıçı onu narahat edən problemləri açıq şəkildə söyləməkdən çəkinməmişdir. Bu tipli yazılarda müəllifin satirik, kinayəli və ifşaedici gülüşünün yerini qəzəb intonasiyası tutur.

"Molla Nəsrəddin" ədəbi məktəbinin fəal üzvlərindən olan Əli Nəzminin felyetonlarında cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən mənfi tiplər qalereyasına rast gəlmək mümkündür. Onun felyetonlarında fanatizmin, xurafatın ifşasından başlamış ictimai-siyasi, inqilabi və sosial məsələlərin tənqidinə qədər bir çox məsələlərə münasibət bildirilir. Cəlil Məmmədquluzadə Əli Nəzminin felyetonlarını aydın və rəvan dilinə, lakonikliyinə, özünəməxsus təhkiyə üslubuna və dərin fəlsəfi fikirlər ifadə etməsinə görə mənsur şeir adlandırırdı. Görkəmli mollanəsrəddinçi alim Firudin Hüseynov isə Əli Nəzmi felyetonlarının səciyyəvi xüsusiyyətlərini açıqlayaraq yazır: " Əli Nəzmi kiçik nəsr əsərlərində özünəməxsus orijinal təşbehlər, gülüş doğuran mübaliğə və təzadlar yaradır, maraqlı, aydın kompozisiyalar qurur. Demək istədiyi fikri müstəqim şəkildə deyil, oxucunu düşündürən bir tərzdə ifadə edir. O, felyetonlarında əsas hadisəni çox zaman tiplərin qarşılıqlı münasibətində, onların öz dili ilə verir. Təhkiyə, mükalimə, sual-cavab, deyişmə və s. vasitələrdən bacarıqla istifadə edir, sözün məcazi mənasını məzmunlu satirik gülüş yaratmaqda əsas vasitəyə çevirir" [4].

Felyetonlarda bir-biri ilə əks qütbdə dayanan, təzad, antonimlik təşkil edən (antitezalıq – S. Q) ziddiyyətli sözlərin, fikirlərin və əhval-ruhiyyənin yaratdığı ifadə vasitələri də xeyli dərəcədə yer almışdır. Cəlil Məmmədquluzadə "Azərbaycan

padşahları" felyetonunda cəmiyyətdəki eyib və qüsurları, real ictimai-siyasi və sosial problemləri, sadə insanları istismar etməklə özlərinə xoş güzəran quran padşahların xalqa həqiranə münasibətini göstərmək və onlara qarşı nifrət hissi oyatmaq məqsədilə təzadlardan yerli-yerində istifadə etmiş və Reynqartın dilindən onların əməllərini sərt şəkildə tənqid hədəfinə çevirmişdir.

Ədiblər felyetonun dərin məna qatında gizlənən əsas mətləbləri bəzən birbaşa, bəzən isə dolayısıyla çatdırmaq məqsədilə bədii təsvir və ifadə vasitələrinin zənginliyindən, Azərbaycan dilinin bədii imkanlarından yüksək səviyyədə bəhrələnmişlər. Bütün bunlar isə XX əsrin əvvəllərində yazılan felyetonlarda forma və məzmunun harmoniyasını yaratmaqla yanaşı, həm də bu janrın çoxqatlı funksiyasının və estetik prinsiplərinin qorunmasının başlıca təminatçısına çevrilmişdir.

**ƏDƏBİYYAT**

1. Bəhayi. Haziq həkim. "Molla Nəsrəddin" jurnalı, 1925-ci il, №35, s.5
2. E.M.Evnina. Fransua Rable M: Qoslitizdat, 1948, s.25
3. *Hüseynov Ə.* Sənət yanğısı. Bakı, Yazıçı, 1979, s.80
4. Mir Cəlal, Firudin Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Maarif nəşriyyatı, 1982, s.203
5. Molla Nəsrəddin. Yar ilə görüşmək. "Molla Nəsrəddin" jurnalı. 8 sentyabr,1906-cı il, №23, s.2
6. Molla Nəsrəddin. Hansı elmlər lazım. "Molla Nəsrəddin" jurnalı, 26 may 1906-cı il, №8, s.7
7. Molla Nəsrəddin. "Tərcüman"ın fitvası. "Molla Nəsrəddin" jurnalı, 28 aprel 1907-ci il, №17, s.2
8. *Nağısoylu M.Z., Kərimov R.Ş., Rəhimov M.Q..* Şuşa Azərbaycan mətbuatında (1875–1920.) Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, s.166-167
9. Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, s.214

***AMEA "Elm" nəşriyyatı***
*samiraguliyeva1@gmail.com*

## THE USE OF ARTISTIC DESCRIPTION AND MEANS OF EXPRESSION IN FEUILLETONS AT THE BEGINNING OF THE 20TH CENTURY

**S.H. Guliyeva**

The feuilletons in the press of the beginning of the 20th century are not only rich in terms of topics and ideas, also attract attention in terms of the variety of artistic depictions and means of expression. It was one of the main literary principles to use the works of classical artists and literary heroes as a background in the feuilletons written in this period. The rich folklore of our people is the main base and primary source of the system of allusions, epithets, metonymy, metaphors and other metaphors that are manifested in Azerbaijani prose, poetry and journalism of the 20th century. J.Mammadguluzade, M.A.Sabir, U.Hajibeyli, M.S.Ordubadi, A.Hagverdiyev, O.F.Nemanzade, A.Qamkusar and other columnists paid special attention to the issue of individualization and typification in their works and did not ignore this artistic process throughout their works.

***Keywords:*** *feuilletons, press, literature, "Molla Nasraddin" journal, artistic depiction and means of expression*

## ИСПОЛЬЗОВАНИЕ ХУДОЖЕСТВЕННОГО ОПИСАНИЯ И ВЫРАЗИТЕЛЬНЫХ СРЕДСТВ В ФЕЛЬЕТОНАХ НАЧАЛА XX ВЕКА

**С.Х. Гулиева**

Фельетоны в печати начала 20 века не только богаты темами и идеями, но и привлекают внимание разнообразием художественных описаний и выразительных средств. Одним из основных литературных принципов было использование в качестве фона в написанных в этот период фельетонов произведений классиков и литературных героев. Богатый фольклор нашего народа является основной базой и первоисточником системы сравнений, эпитетов, метонимии, метафор и других, которые проявляются в азербайджанской прозе, поэзии и публицистике XX века. Дж.Мамедгулузаде, М.А.Сабир, У.Гаджибейли, М.С.Ордубади, А.Хагвердиев, О.Ф.Неманзаде, А.Гамкусар и другие фельетонисты уделяли в своих произведениях особое внимание вопросу индивидуализации и типизации и не игнорировали этот художественный процесс на протяжении всего своего творчества.

***Ключевые слова:*** *фельетоны, пресса, литература, журнал "Молла Насреддин, художественное описание и выразительные средства*